## LAMİYƏ İSAZADƏ

**Lamiyə Ədalət qızı İsayeva;**

*12 may 1989-cu ildə* GƏNCƏ*də doğulub.*
*Gəncə Humanitar Kollecində oxuyub.*

### *HƏYAT*

Həyat açılmayan pünhan bir sirdir,
sabah nə olacaq? – hələ bilmirik...
Həyat həm gözəldir, həm də çirkindir,
onu olduğutək qəbul etmirik...

Tutmaq olmur heç vaxt onun nəbzini,
doğrulur, dolanır, dəyişir həyat...
Demə, qaçaraqdı, demə, durğundu,
qarışır, barışır, öcəşir həyat...

Acımı? – acıdır, şirinmi? – şirin,
sabaha boylanıb, yaşamaq gərək..!
Nə küsüm, nə küssün, həyat həyatsa,
bir addım qalxmaqçün basamaq gərək...

Həyat imtahandır, bizsə tələbə,
eh, nə qədər sual cavabsız qalıb...
Elə yaşayaqki biz ömrümüzü,
deməyək, bugünüm savabsız qalıb...

E-hey, bu həyatda məna axtaran,
həyatın mənası yaşamaqdadır..!
Aldığın nəfəsçün şükür eylə hər an,
hər aldığın nəfəs yaşamaq dadır...

## *ARZULAR*

Aşıb daşar arzularla könüllər,
yenə hər gün yeni arzu doğular.
Özümüz öz könlümüzə yetmirik,
bəzən ömür arzularla soluxur...

Amma arzulardır həyatın bağı,
onsuz ömrümüzün nə mənası var..?
Arzulu könüllər, pərvaz qanadlı,
arzusuz bir ömür, boş bir mağara...

İnsan çatmaq istər, hər arzusuna,
əllər çatmasa da, ürəklər çatar...
Həyat, nə qəribə qanunların var,
arzu bir gəldimi... törəyər, çıxar.

...Kökü ürəkdədir, xəyalı harda? –
arzular çırpınar uzaq ünvana...
Hamı arzudadır, arzu hamıda...
Kimi yolda qalar, yol kimə qala..?

## *NƏFƏS ALAN CƏSƏD*

Kimsə bilməz çəkdiyimi,
göz yaşları tökdüyümü.
Bilən yoxdur, öldüyümü,
nəfəs alan, bir cəsədəm.

Dərdi, qəmi yox edirəm,
gözlərimdə gizlədirəm.
Ölüm, haraya gedirəm? –
nəfəs alan, bir cəsədəm.

Ümidsiz qəlb daşıyıram,

qanım donub, üşüyürəm.
Görən sanır yaşayıram,
nəfəs alan, bir cəsədəm.

Könlümdə bir tənhalıq var,
bu gen dünya, mənə çox dar.
Görünsəm də mən bəxtiyar,
nəfəs alan, bir cəsədəm.

Damla-damla yaş süzülüb,
yanaqlarıma düzülüb…
Əlim həyatdan üzülüb,
nəfəs alan, bir cəsədəm.

Bu dünyada yaşasam da,
hərdən gülüb, danışsam da,
Ayaq üstündə olsam da,
nəfəs alan, bir cəsədəm.

Görünənə inanmayın,
göründüyü tək sanmayın;
Varlığıma aldanmayın,
nəfəs alan, bir cəsədəm…